| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 08.02.2017 |
| QEYDİYYAT NÖMRƏSİ | 41 |
| ADI | “Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları”nın təsdiq edilməsi haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Xalq Qəzeti (Dərc olunma tarixi: 11-02-2017, Nəşr Nömrəsi: 31), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 28-02-2017, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 294) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | 11.02.2017 |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 190.010.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | 14201702080041 |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 14.02.2017 |

**“Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 dekabr tarixli 1168 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə və Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları” təsdiq edilsin (əlavə olunur).
2. “Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları”nın təsdiq edilməsi haqqında” ləğv olunmuş Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının 2012-ci il 15 may tarixli 4 nömrəli qərarı ləğv edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 8 fevral 2017-ci il
41

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2017-ci il 8 fevral tarixli 41 nömrəli qərarı ilə
təsdiq edilmişdir

**Azərbaycan Respublikasında rezidenturaya qəbul**

**QAYDALARI**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 26.4-cü və 26.6-cı maddələrinə əsasən hazırlanmışdır və həkim-mütəxəssislərin hazırlanması məqsədi ilə *əsas (baza ali)* tibb təhsilli şəxslərin rezidenturaya qəbulu qaydalarını müəyyən edir. [1]

1.2. Rezidenturaya qəbul olmaq hüququna Azərbaycan Respublikasında *əsas (baza ali)* tibb təhsili almış şəxslər və ya xarici ölkələrdə təhsil almış və ali tibb sahəsində müəyyən edilmiş qaydada *xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyaları tanınmış* şəxslər (bundan sonra – namizədlər) malikdirlər. [2]

1.3. Rezidentura təhsili dövlət sifarişi (dövlət büdcəsinin vəsaiti hesabına) və ya ödənişli əsaslarla həyata keçirilir.

1.4. Rezidenturaya qəbul namizədlərin müvafiq tədris ilində biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanda (qəbul imtahanında) əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – Mərkəz) tərəfindən müsabiqə yolu ilə həyata keçirilir.

1.5. Rezidenturada təhsil alan rezidentlər rezidenturaya qəbul üçün müsabiqədə iştirak edə bilməzlər.

1.6. Müsabiqədə iştirak ödənişlidir.

## 2. Ərizələrin qəbul edilməsi

2.1. Rezidenturaya qəbul üzrə müsabiqədə iştirak etmək üçün Azərbaycan Respublikasında yerləşən ali təhsil müəssisələrini bitirmiş və ya cari tədris ilində bitirən bütün namizədlər Mərkəz tərəfindən müəyyən edilmiş müddətdə Mərkəzin rəsmi internet saytında “Namizədin elektron ərizəsi”ni dolduraraq özləri təsdiq etməlidirlər. Digər namizədlər müsabiqədə iştirak etmək üçün Mərkəz tərəfindən müəyyən edilmiş müddətdə Mərkəzin rəsmi internet saytında “Namizədin elektron ərizəsi”ni doldurmalı və aşağıdakı sənədlərin əslini Mərkəz tərəfindən yaradılmış Sənəd Qəbulu Komissiyalarına (bundan sonra – SQK) şəxsən təqdim etməklə ərizələrini təsdiq etdirməlidirlər:

2.1.1. Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqələrini, əcnəbilər pasportlarını və (və ya) icazə vəsiqələrini, vətəndaşlığı olmayan şəxslər yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədləri və ya icazə vəsiqələrini, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini, qaçqın statusu almış şəxslər və onların ailə üzvləri qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini;

2.1.2. *əsas (baza ali)* tibb təhsili haqqında sənədi və ona əlavəni;

2.1.3. xarici ölkələrdə ali təhsil almış şəxslər Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilən *xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını* təsdiq edən sənədləri; [3]

2.1.4. xarici ölkələrdə ali ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçmiş Azərbaycan Respublikasının vətəndaşları olan həkimlərə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən verilən “Tibbi və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması barədə şəhadətnamə”ni.

2.2. Əcnəbilər və xarici ölkələrdə təhsil almış şəxslər bu Qaydaların 2.1-ci bəndində qeyd olunan sənədlərlə yanaşı, həmin sənədlərin notarial qaydada təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsini də SQK-ya təqdim edirlər.

2.3. Ərizələrin qəbulu zamanı dövlət sifarişi əsasında rezidentura təhsili almaq istəyən namizədlər rezidenturanı bitirdikdən sonra Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən *İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla* müəyyən edilən tibb müəssisələrində 3 (üç) il müddətində əmək fəaliyyəti ilə məşğul olacaqları barədə məlumatlandırılırlar. Bu namizədlər elektron ərizəni təsdiq etdikləri andan qeyd edilmiş öhdəliyə razılıq vermiş hesab

olunurlar. [4]

### 3. Qəbul imtahanı

3.1. *Əsas (baza ali)* tibb təhsili əsasında rezidenturaya qəbul imtahanı Mərkəz tərəfindən mərkəzləşdirilmiş qaydada iki mərhələdə keçirilir: [5]

3.1.1. baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı;

3.1.2. ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı.

*3.2. Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilir, "məqbul" alanlar 5 (beş) il ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılırlar. Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş tələbələr də buraxılırlar. Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından "məqbul" alan tələbələr ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına yalnız rezidenturaya qəbul olunmaq hüququ əldə etdikdən sonra buraxılırlar.*[6]

3.3. Namizədin təhsil aldığı *əsas (baza ali)* tibb təhsili istiqamətindən asılı olaraq, imtahan aparılan baza və ixtisas fənləri Mərkəz tərəfindən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə razılaşdırılmaqla müəyyən edilir.

3.4. İmtahanların məzmunu, forması, aparılması texnologiyası, davametmə müddəti, keçiriləcəyi yer və günlər Mərkəz tərəfindən müəyyənləşdirilir.

3.5. Qəbul imtahanlarında *əlilliyi olan şəxslərin* iştirakının təmin edilməsi üçün Mərkəz tərəfindən əlverişli şərait yaradılır. Görmə qabiliyyəti olmayan (*I dərəcə əlilliyi olan*) namizədlərə fərdi nəzarətçi təyin edilir və onlar üçün imtahanın davametmə müddəti 30 dəqiqə artırılır.[7]

### 4. İxtisas seçimi

4.1. Rezidenturaya qəbul olmaq üçün ixtisas seçimi ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının nəticələri elan olunduqdan sonra aparılır. *İxtisas seçiminə ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından topladığı balı Mərkəz tərəfindən müəyyən edilən müsabiqə şərtlərinə uyğun olan namizədlər buraxılırlar.*[8]

4.2. Namizəd bitirdiyi *əsas (baza ali)* tibb təhsili istiqamətinə müvafiq olan ixtisaslardan istəyinə uyğun olanlarını seçir, onları istədiyi ardıcıllıqla elektron ərizəsindəki ixtisas seçimi formasına daxil edir və təsdiqləyir.

4.3. Seçilmiş ixtisasların ərizə formasında göstərilən ardıcıllığı müsabiqə zamanı əsas kimi qəbul olunur və namizəd topladığı bala əsasən müsabiqədən keçdiyi ilk ixtisasa yerləşdirilir.

### 5. Müsabiqənin keçirilməsi

*5.1. Müsabiqə namizədlərin ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından topladıqları bal əsasında aparılır.*[9]

5.2. Namizədlərin yerləşdirilməsi onların öz ərizələrində qeyd etdikləri ixtisasların ardıcıllığı, dövlət sifarişi ilə qəbulun proqnozu nəzərə alınmaqla, ixtisaslar üzrə vakant yerlərin sayı çərçivəsində həyata keçirilir.

5.3. Müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox namizədi bir-birindən fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınır:

5.3.1. *əsas (baza ali)* tibb təhsili üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);

5.3.2. *baza* fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından toplanılan bal. [10]

5.4. Ümumi balı eyni olan iki və daha çox namizədi bir-birindən fərqləndirmək mümkün olmadıqda, onların hamısı müvafiq ixtisasa yerləşdirilir.

5.5. Müsabiqənin nəticələri elan olunduqdan sonra boş qalan yerlər elan edilir, namizədlər tərəfindən bu Qaydaların 4.1-ci və 4.2-ci bəndlərinə uyğun olaraq ixtisas seçimi həyata keçirilir və həmin yerlərə müsabiqə yolu ilə yerləşdirilmə aparılır.

### 6. Yekun müddəalar

6.1. Hər hansı bir ixtisasa yerləşdirilmiş namizəd tələb olunan sənədlərin əslini *Mərkəz tərəfindən müəyyən olunmuş müddətdə* qəbul olduğu tibb müəssisəsinin tabe olduğu mərkəzi icra hakimiyyəti orqanına şəxsən təqdim etməklə qeydiyyatdan keçməlidir. Namizədin bu müddətdə qeydiyyatdan keçməməsi onun yerləşdirildiyi ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir. Bu namizədlər boş qalan yerlər üzrə keçirilən müsabiqəyə buraxılmırlar. [11]

6.2. Rezidenturaya qəbul üzrə keçirilən müsabiqə və onun nəticələri ilə bağlı namizədlərin müraciətlərinə baxılması üçün Mərkəz tərəfindən Apelyasiya Komissiyası yaradılır.

6.3. Namizəd Apelyasiya Komissiyasına şəxsiyyəti təsdiq edən sənədin əslini təqdim etməklə, şəxsən müraciət etməlidir. Apelyasiya Komissiyasının qərarlarından inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

6.4. Namizədin aşağıdakı hərəkətlərə yol verməsi qadağandır:

6.4.1. saxta və ya başqasına aid sənəd təqdim etmək, imtahana öz yerinə başqasını göndərmək;

6.4.2. imtahana mobil telefon və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;

6.4.3. yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla imtahan binasına girmək, özü ilə *tütün məmulatı* gətirmək;[12]

6.4.4. "İmtahan başlandı!" elan olunan andan imtahanın sonunadək səbəbindən asılı olmayaraq, zalda yerini

dəyişmək, gəzişmək, danışmaq və digər hərəkətlərlə imtahanın gedişinə mane olmaq;

6.4.5. "İmtahan başlandı!" elan olunan andan 1,5 saat müddət keçənədək və imtahanın son 15 dəqiqəsi ərzində imtahan zalından çıxmaq;

6.4.6. başqasının nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab kartına, sual kitabçasına baxmaq və ya öz cavab kartına, sual kitabçasına başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

6.4.7. nəzarətçiyə və ya digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;

6.4.8. cavab kartını və sual kitabçasını zədələmək, onları nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.

6.5. Namizədin bu Qaydaların 6.4-cü bəndində göstərilən hərəkətlərə yol verməsi halları Mərkəz tərəfindən aşkar edildikdə, onun müsabiqə (imtahan) nəticələri ləğv edilir. Bu qərardan inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 17 aprel 2018-ci il tarixli **171** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 24 aprel 2018-ci il, 91 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 819)**
2. 8 noyabr 2018-ci il tarixli **482** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, 256 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2432** )
3. 7 mart 2019-cu il tarixli **83** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 mart 2019-cu il, 59 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 517)**
4. 20 dekabr 2019-cu il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cı il, 12, maddə 2071 )**
5. 30 noyabr 2020-ci il tarixli **466** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 3 dekabr 2020-ci il, 253 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1409)**
6. 19 mart 2021-ci il tarixli **75** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 aprel 2021-ci il, 65, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 294)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 8 noyabr 2018-ci il tarixli **482** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2432** ) ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 1.1-ci bəndində, 2.1.2-ci yarımbəndində, 3.3-cü, 4.2-ci bəndlərində və 5.3.1-ci yarımbəndində "**baza ali**" sözləri "**əsas (baza ali)**" sözləri ilə əvəz edilmişdir.

[2] 8 noyabr 2018-ci il tarixli **482** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2432** ) ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 1.2-ci bəndində "**baza (əsas) ali**" sözləri "**əsas (baza ali)**" sözləri ilə əvəz edilmişdir.

19 mart 2021-ci il tarixli **75** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 aprel 2021-ci il, 65 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 294)** ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 1.2-ci bəndində "**ixtisası nostrifikasiya edilmiş**" sözləri "**xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyaları tanınmış** " sözləri ilə əvəz edilmişdir.

[3] 19 mart 2021-ci il tarixli **75** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 1 aprel 2021-ci il, 65, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 294)** ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 2.1.3-cü yarımbəndində "**ixtisasın tanınmasının və ekvivalentliyinin müəyyən edilməsini**" sözləri "**xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını**" sözləri ilə əvəz edilmişdir.

[4] 30 noyabr 2020-ci il tarixli **466** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 3 dekabr 2020-ci il, 253 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1409)** ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 2.3-cü bəndinin birinci cümləsinə "**Səhiyyə Nazirliyi** tərəfindən" sözlərindən sonra "**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə razılaşdırmaqla**" sözləri əlavə edilmişdir.

[5] 8 noyabr 2018-ci il tarixli **482** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 noyabr 2018-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2432** ) ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 3.1-ci bəndində "**Baza ali**" sözləri "**Əsas (baza ali)** " sözləri ilə əvəz edilmişdir.

[6] 20 dekabr 2019-cu il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cı il, 12, maddə 2071** ) ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 3.2-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~3.2. Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının nəticələri Mərkəz tərəfindən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə razılaşdırılmaqla müəyyən edilən müsabiqə şərtini ödəyən namizədlər ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılırlar.~~

[7] 7 mart 2019-cu il tarixli **83** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 14 mart 2019-cu il, 59 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 517)** ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 3.5-ci bəndinin birinci cümləsində "**sağlamlıq imkanları məhdud şəxslərin** " sözləri "**əlilliyi olan şəxslərin** " sözləri ilə, ikinci cümləsində " **I qrup əlil** " sözləri "**I dərəcə əlilliyi olan** " sözləri ilə əvəz edilmişdir.

[8] 20 dekabr 2019-cu il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cı il, 12, maddə 2071** ) ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 4.1-ci bəndin ikinci cümləsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~İxtisas seçiminə baza və ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanlarından topladığı ümumi balı (ballarının cəmi) ilə yanaşı, ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından ayrılıqda topladığı balı da Mərkəz tərəfindən müəyyən edilən müsabiqə şərtlərinə uyğun olan namizədlər buraxılırlar.~~

-

[9] 20 dekabr 2019-cu il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cı il, 12, maddə 2071** ) ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 5.1-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5.1. Müsabiqə namizədlərin baza və ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanlarından topladıqları ümumi bal (balların cəmi) əsasında aparılır.~~

-

[10] 20 dekabr 2019-cu il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cı il, 12, maddə 2071** ) ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 5.3.2-ci yarımbəndində "**ixtisas**" sözü "**baza**" sözü ilə əvəz edilmişdir.

-

[11] 20 dekabr 2019-cu il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 dekabr 2019-cu il, 285 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cı il, 12, maddə 2071** ) ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 6.1-ci bəndində "**10 gün müddətində**" sözləri "**Mərkəz tərəfindən müəyyən olunmuş müddətdə**" sözləri ilə əvəz edilmişdir.

-

[12] 17 aprel 2018-ci il tarixli **171** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 24 aprel 2018-ci il, 91 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 819**) ilə "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nın 6.4.3-cü yarımbəndində "**siqaret**" sözü "**tütün məmulatı**" sözləri ilə əvəz edilmişdir.